

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

Yanvar 2021

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

## “QEYRİ-NEFT SƏNAYESİNİN 11 FAİZDƏN ÇOX ARTMASI REAL İQTİSADİYYATIN, QEYRİ-NEFT İQTİSADİYYATININ İNKİŞAFI DEMƏKDİR.”

2020-ci ilin yekunlarına həsr olunan
videokonfrans şəklində keçirilən müşavirədə
İLHAM ƏLİYEVİN giriş nitqi



“Baxmayaraq ki, 2020-ci il bütün ölkələr üçün iqtisadi sahədə ağır il olub, amma Azərbaycan digər ölkələrə nisbətən bu vəziyyətdən daha az itkilərlə çıxıb. Bizim iqtisadiyyatımız təqribən 4 faizdən bir qədər çox azalıb. Hesab edirəm ki, bu, yaxşı göstəricidir. Amma, eyni zamanda, onu da bildirməliyəm ki, qeyri-neft sənayemiz 11 faizdən çox artıb. Nəyin hesabına? Məhz şaxələndirmə hesabına. Ona görə ki, sənayeləşmə siyasəti düzgün aparılıb. Neftin hasilatı bizdə azalır.

Eyni zamanda, OPEC+ razılaşmasına görə biz özümüz də azaltmışıq. Neftin qiyməti aşağı düşüb. Əgər bu neft amili olmasaydı, bizim iqtisadiyyatımız bəlkə də daha az düşərdi. Amma qeyri-neft sənayesinin 11 faizdən çox artması real iqtisadiyyatın, qeyri-neft iqtisadiyyatının inkişafı deməkdir.”

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ______ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ______ səh. 10

2020-ci ildə Azərbaycana gələn xaricilər
bank kartları vasitəsi ilə 430,2 milyon manatlıq əməliyyat aparmışlar ______ səh. 14

Azexport.az portalına 2020-ci ilin yanvar-dekabr aylarında
610,8 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ______ səh. 16

2021-ci ilin yanvar ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən
8,8 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir ______ səh. 19

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2020-ci ilin **yanvar-dekabr ayları** ərzində qeyri-neft sektoru üzrə **1,9 milyard** ABŞ dolları dəyərində mal **ixrac olunmuşdur**

2020-ci ilin **dekabr ayında** qeyri-neft sektoru üzrə ixrac **213,5 milyon** ABŞ dolları təşkil etmişdir

2020-ci il ərzində Azərbaycanın ixracı **13,7 milyard ABŞ dollar** olub. Qeyri-neft sektoru üzrə **1,9 milyard ABŞ dolları** dəyərində ixrac reallaşdırılıb. Qeyri-neft sektoru üzrə ixrac 2019-cu illə müqayisədə **102 milyon ABŞ dolları** və ya **5,2 faiz** azalıb.

2020-ci il ərzində Rusiyaya **691,0 milyon**, Türkiyəyə **377,8 milyon**, İsveçrəyə **224,8 milyon**, Gürcüstana **127,6 milyon** və Çinə **44,5 milyon ABŞ dolları** dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2020-ci il ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında qızıl (205,6 milyon ABŞ dolları) birinci, tomat (pomidor) 201,4 milyon ABŞ dolları) ikinci və pambıq mahlıcı (131,9 milyon ABŞ dolları) üçüncü olub.

Ümumiyyətlə, 2020-ci il ərzində meyvə-tərəvəz ixracı 607,7 milyon, pambıq lifi ixracı 133,2 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 113,4 milyon, kimya sənayesi məhsullarının ixracı 85,2 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 52,4 milyon, pambıq ipliyi ixracı 19 milyon, spirtli və spirtsiz içkilərin ixracı 12 milyon, şəkər ixracı 26,9 milyon, bitki və heyvan mənşəli piylər və yağlar ixracı 24,7 milyon, çay ixracı 9,5 milyon ABŞ dolları təşkil edib.

2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2020-ci il ərzində meyvə-tərəvəz ixracı 0,3 faiz, bitki və heyvan mənşəli piylər və yağlar ixracı 34 faiz, şəkər ixracı 0,1, pambıq lifi ixracı 7,5 faiz artıb.

2020-ci ilin dekabr ayında qeyri-neft sektoru üzrə ixrac 213,5 milyon ABŞ dolları təşkil edib. 2020-ci ilin dekabr ayında qeyri-neft sektorunun ümumi ixracda payı 31,4 faiz təşkil edib. Ötən dövrlə müqayisədə bu rəqəm 23,1 faiz çoxdur. 2020-ci ilin dekabr ayında yeyinti məhsullarının qeyri-neft sektorunda payı 34,4 faiz, qeyri-yeyinti sektoru üzrə isə 65,5 faiz təşkil edib.

Bu ilin yanvar ayında qeyri neft-qaz məhsulları üzrə ən çox mal Rusiyaya (62,8 milyon ABŞ dolları), Türkiyəyə (57,3 milyon ABŞ dolları), İsveçrəyə (23,5 milyon ABŞ dolları), Gürcüstana (10,7 milyon ABŞ dolları) və Özbəkistana (7,6 milyon ABŞ dolları) ixrac edilib.

2020-ci ilin dekabr ayında qeyri-neft sektoru üzrə ixracda xurma (26,7 milyon ABŞ dolları) birinci, qızıl (21,9 milyon ABŞ dolları) ikinci və pambıq mahlıcı (21,3 milyon ABŞ dolları) üçüncü olub

MADE IN AZERBAIJAN

# 2020-ci ildə QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 əsas ixrac ölkəsi**
## (2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2020 İXRAC İCMALI YANVAR



# 2020-ci ilin **dekabr ayında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 əsas ixrac ölkəsi**
# **(2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI YANVAR



## 2020-ci ildə ixrac olunan **ƏSAS QEYRİ-NEFT** mallarının siyahısı
## **(2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

İXRAC İCMALI 2020 YANVAR












| Mal | 2020 | 2019 |
|---|---|---|
| Qızıl | 205,6 | 172,4 |
| Tomat (pomidor) | 201,4 | 189,3 |
| Pambıq mahlıcı | 131,9 | 122,4 |
| Fındıq ləpəsi | 113,6 | 124,2 |
| Xurma | 91,6 | 104,7 |
| İlkin formalı polipropilen | 64,5 | 65,7 |
| Elektrik enerjisi | 59,8 | 76,8 |
| Metanol | 51,2 | 64,6 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 48,8 | 60 |
| Digər | 883 | 974,5 |

# 2020-ci ilin **dekabr ayında** ixrac olunan **ƏSAS QEYRİ-NEFT** mallarının siyahısı
**(2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI YANVAR







| Mal | 2020 | 2019 |
|---|---|---|
| Xurma | 26,7 | 20,1 |
| Qızıl | 21,9 | 14,8 |
| Pambıq mahlıcı | 21,3 | 14,9 |
| Qabığı təmizlənmiş meşə fındığı | 12,8 | 10,7 |
| Tomat (pomidor) | 11 | 22,6 |







| Mal | 2020 | 2019 |
|---|---|---|
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 8,6 | 4,4 |
| İlkin formalı polipropilen | 8,2 | 6,3 |
| Şəkər | 5,5 | 0,5 |
| Metanol | 5,1 | 1,1 |
| Digər | 92 | 77,9 |

## Yanvar - dekabr aylarında ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR (milyon ABŞ dolları ilə)

2020 İXRAC İCMALI YANVAR

### 2019

| Ay | Mal | Məbləğ |
|---|---|---|
| Yanvar | Xurma | 12,6 |
| Fevral | Elektrik enerji | 19,4 |
| Mart | Fındıq ləpəsi | 13,7 |
| Aprel | Tomat (Pomidor) | 24,2 |
| May | Tomat (Pomidor) | 54,6 |
| İyun | Tomat (Pomidor) | 33,8 |
| İyul | Qızıl | 14,7 |
| Avqust | Qızıl | 22,7 |
| Sentyabr | Qızıl | 13,1 |
| Oktyabr | Xurma | 27,1 |
| Noyabr | Xurma | 37 |
| Dekabr | Pomidor | 22,6 |

### 2020

| Ay | Mal | Məbləğ |
|---|---|---|
| Yanvar | Qızıl | 16,3 |
| Fevral | Pambıq mahlıcı | 19,5 |
| Mart | Tomat (pomidor) | 19,2 |
| Aprel | Tomat (Pomidor) | 29,4 |
| May | Tomat (Pomidor) | 49,7 |
| İyun | Tomat (Pomidor) | 39,2 |
| İyul | Albalı və gilas | 16,4 |
| Avqust | Qızıl | 28 |
| Sentyabr | Qızıl | 25,8 |
| Oktyabr | Xurma | 19,7 |
| Noyabr | Xurma | 29,5 |
| Dekabr | Xurma | 26,7 |

2

# 2020-Cİ İLİN YANVAR-DEKABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

“İxrac İcmalı” tərəfindən qeyri-neft sektoru üzrə 2020-ci ilin yanvar-dekabr ayları üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

2020-ci il üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, “Socar Polymer" MMC, "Land Lojistic" MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Almeyvə" MMC, "Sun Food" MMC, "Global Trade Group" MMC, "Baku Steel Company", “Aqrovest” MMC və " P-Aqro" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azergold" QSC, "Azəralüminium" MMC, "Azərenerji" ATSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, “Azərtütün Aqrar Sənaye Kompleksi" MMC, “Azəripək" MMC, "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC və Naxçıvan MR Dövlət Energetika Xidməti.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



# 2020-Cİ İLİN **yanvar-dekabr aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **qeyri-dövlət ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

# 2020-Cİ İLİN **yanvar-dekabr aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **dövlətə məxsus ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI YANVAR

| | 2020-ci il | 2019-cu il |
|---|---|---|
| ARDNŞ-nin “MARKETİNQ Və İQTİSADİ ƏMƏLİYYATLAR İDARƏSİ” | 149,6 milyon | 219,5 milyon |
| “AZERGOLD" QSC | 109,7 milyon | 85 milyon |
| “AZƏRALÜMİNİUM" MMC | 98 milyon | 115,5 milyon |
| “AZƏRENERJİ" ASC | 59 milyon | 75,9 milyon |
| "AZƏRPAMBIQ AQRAR SƏNAYE KOMPLEKSİ" MMC | 32,5 milyon | 23,6 milyon |
| "AZƏRBAYCAN HAVA YOLLARI" QSC | 8,6 milyon | 21,5 milyon |
| “AZƏRTÜTÜN AQRAR SƏNAYE KOMPLEKSİ" MMC | 1,4 milyon | 2,5 milyon |
| "AZƏRİPƏK" MMC | 1,1 milyon | 759 min |
| "AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI" MMC | 822 min | 0 |
| NAXÇIVAN MR DÖVLƏT ENERGETİKA XİDMƏTİ | 773 min | 932 min |



# 2020-Cİ İLİN **yanvar-dekabr aylarında "Azərkosmos" ASC 45,1 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR

2020 İXRAC İCMALI YANVAR



2020-ci ilin yanvar-dekabr aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **33 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **90 faizini** təşkil etmişdir. 2020-ci ilin dekabr ayında isə "Azərkosmos" ASC dünyanın **23 ölkəsinə 3,8 milyon** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.




2020-ci ildə"Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**

| Ölkə | Məbləğ |
|---|---|
| Fransa | 13,3 mln $ |
| Birləşmiş Krallıq | 11,3 mln $ |
| ABŞ | 9,2 mln $ |
| Malayziya | 6,9 mln $ |
| BƏƏ | 1,5 mln $ |



**2020-ci ildə**
Azərbaycana gələn xaricilər
**bank kartları vasitəsi ilə**
**430,2 milyon** manatlıq əməliyyat aparmışlar

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2020-ci ilin yanvar-dekabr aylarında Azərbaycana dünyanın 155 ölkəsindən 720,3 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,7 dəfə az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Koronovirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə müvəqqəti məhdudiyyətlərin tətbiq olunması cari ilin aprel-noyabr aylarında ölkəmizə gələnlərin sayında kəskin azalmaya səbəb olub və səfərlər əsas etibarilə qeyri-turizm məqsədilə həyata keçirilib.

2020-ci ilin dekabr ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi **27,9 milyon manat** təşkil edib. 2020-ci ilin yanvar-dekabr ayında isə əcnəbilər bank kartları vasitəsi ilə 430,2 milyon manatlıq əməliyyat aparıblar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

İXRAC İCMALI 2020 YANVAR

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **bank kartları vasitəsi ilə** APARDIQLARI ƏMƏLİYYATLARIN DƏYƏRİ **(milyon manatla)**

## 2018

- Yanvar - **99,8**
- Fevral - **91,1**
- Mart - **105,8**
- Aprel - **109,7**
- May - **107,3**
- İyun - **106,7**
- İyul - **126,3**
- Avqust - **141**
- Sentyabr - **114,6**
- Oktyabr - **117**
- Noyabr - **76,2**
- Dekabr - **82,9**

CƏMİ - **1278,4**

## 2019

- Yanvar - **88,3**
- Fevral - **85,3**
- Mart - **98,0**
- Aprel - **103,2**
- May - **100,9**
- İyun - **115,1**
- İyul - **134,6**
- Avqust - **137,4**
- Sentyabr - **106,2**
- Oktyabr - **104,7**
- Noyabr - **90,3**
- Dekabr - **92,7**

CƏMİ - **1256,8**

## 2020

- Yanvar - **85,2**
- Fevral- **72,9**
- Mart - **53,9**
- Aprel - **19,7**
- May - **24,3**
- İyun - **23,7**
- İyul - **23,0**
- Avqust - **25,6**
- Sentyabr - **25,9**
- Oktyabr - **24,9**
- Noyabr - **23,2**
- Dekabr - **27,9**

CƏMİ - **430,2**

# 3

# AZEXPORT.AZ PORTALINA 2020-Cİ İLİN YANVAR-DEKABR AYLARINDA 610,8 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Portala daxil olan İXRAC SİFARİŞLƏRİNİN **ümumi dəyəri** **2 milyard 196 milyon** ABŞ dolları təşkil etmişdir

2020-ci ilin yanvar-dekabr aylarında Azexport.az portalına **610,8 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2019-cu illə müqayisədə 2020-ci ildə portal daxil olan ixrac sifarişləri dəyər baxımından 2,5 faiz artmışdır.

2020-ci ilin dekabr ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **57,5 milyon** ABŞ dolları təşkil etmişdir.

2020-ci ilin dekabr ayında Azexport.az portalına ən çox ixrac sifarişi fındıq, toyuq əti və yumurtası, pambıq mahlıcı, tütün, çay, nar, şərab, qənnadı məhsulu, kosmetik vasitə, mühərrik yağı, yataq dəsti, buğda kəpəyi, pambıq yağı, zəfəran, noxud və s. mallara daxil olub.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2020-ci ilin 31 dekabr tarixinə kimi (48 ay ərzində) Azexport.az portalına dünyanın **142 ölkəsindən** daxil olan ixrac sifarişlərinin dəyəri **2 milyard 195,6 milyon** ABŞ dolları təşkil edib.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

## **Azexport.az** PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(milyon ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI YANVAR




Yanvar - **42,1**
Fevral - **60,8**
Mart - **44,8**
Aprel - **61,5**
May - **64,7**
İyun - **45,6**
İyul - **55,0**
Avqust - **54,9**
Sentyabr - **33,0**
Oktyabr - **49,8**
Noyabr - **41,1**
Dekabr - **57,5**

2017-ci il
**CƏMİ - 475**

2018-ci il
**CƏMİ - 514,1**

2019-cu il
**CƏMİ - 595,7**

2020-ci il
**CƏMİ - 610,8**



Son **48 ay** ərzindəki sifarişlərin cəmi - **2 195,6**

# 2020-Cİ İLİN **dekabr ayında Azexport.az** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

Fındıq



Toyuq əti və yumurtası



Pambıq mahlıcı



Tütün



Çay



Nar



Şərab



Qənnadı məhsulu



Kosmetik vasitə



Mühərrik yağı



Yataq dəsti



Buğda kəpəyi



Noxud



Pambıq yağı



Zəfəran



4

# 2021-Cİ İLİN YANVAR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 8,8 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə 2021-ci ilin yanvar ayı ərzində hüquqi və fiziki şəxslər tərəfindən 112 dəfə müraciət daxil olunub. Ümumilikdə **149 ədəd sertifikat** (92 ədəd mənşə, 41 ədəd baytarlıq, 9 ədəd Qida təhlükəsizliyi sertifikatı, 7 ədəd CİTES) verilib.

Cari ilin yanvar ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə **8.8 (8.796.471,81) milyon** ABŞ dolları dəyərində ixrac həyata keçirilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən qiymətli metallar, nar, alma, albalı şirələri, narşərab, bitki, zeytun və günəbaxan yağları, biyan kökü, qızılgül, incə karbon maddəsi, tibbi zəli, çay, pendir, duzlanmış iri və xırdabuynuzlu heyvanların daxili orqanları, işlənmiş katalizator iribuynuzlu heyvan mədəsi, polad armatur yayması, polad boru, polad kvadrat pəstah həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında polad armatur yayması (51,2%), günəbaxan yağları (15,8%), pendir (13,3%), meyvə şirələrinin (3,9%), çay (1%) ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar 19 ölkəyə- Türkiyə (29,9%), Rusiya (25,9%), Gürcüstan (25,7%), Honq-Konq (9%), Qazaxıstan (4,2%), digər ölkələrə (5,3%)-(ABŞ, Belarus, Polşa, Hindistan, Myanma, İsrail, İran, Malayziya, BƏƏ, Ukrayna, Özbəkistan) ixrac edilmişdir. İxrac olunan məhsulların hava nəqliyyatı ilə (57,4%), avtomobil ilə (68,6%), dəmiryolu nəqliyyatı (23,2%), qarışıq nəqliyyat növləri ilə ixracı isə (2,7%) təşkil edir.

## 2021-ci ilin **YANVAR AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN **ixracın statistikası (milyon ABŞ dolları ilə)**






## 2021-ci ilin **YANVAR AYINDA** "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ** BÖLGÜSÜ (%)

2020 İXRAC İCMALI YANVAR

TÜRKİYƏ
**29,9%**

RUSİYA
**25,9%**

GÜRCÜSTAN
**25,7%**




HONQ-KONQ
**9%**

QAZAXISTAN
**4,2%**

2021-ci ilin **YANVAR AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** vasitəsilə
# ƏN ÇOX İXRAC OLUNAN MƏHSULLARIN BÖLGÜSÜ



## 2021-ci ilin **YANVAR AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** vasitəsilə **İxrac edilən məhsulların NƏQLİYYAT ÜZRƏ BÖLGÜSÜ**



**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
/iqtisadiislahat
/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

